# ƏLVİDA, "AZƏRBAYCAN" NƏŞRİYYATI

## *Həqiqət uğrunda savaşın son günü*

Əlvida, "Azərbaycan" nəşriyyatı!

Bəzən bir sosial şəbəkə paylaşımı insanı illərin yaddaşına, unudulmuş dəyərlərə, sükutla vidalaşan bir dövrə aparır. Bu yazını yazmağa məni vadar edən də məhz belə bir hiss oldu. Azərbaycan jurnalistikasına, publisistik fikrə, kitab mədəniyyətinə 35 il ömrünü həsr etmiş Əlirza Xələflinin Facebook hesabında paylaşdığı çıxışının video paylaşımını görəndən sonra içimdə ağır bir nisgil yarandı. Bu nisgil təkcə bir nəşriyyatın taleyi ilə bağlı deyildi - bu, bütöv bir dövrün sakitcə pərdəsini endirməsi idi.

"Azərbaycan" nəşriyyatı sadəcə kitab çap edən bir müəssisə olmayıb. O, onilliklər boyunca sözün ünvanı, fikrin sığınacağı, qələm adamlarının ümid qapısı olub. Buradan minlərlə kitab oxucuya yol tapıb, neçə-neçə gənc yazar ilk dəfə adını kitab üzərində görüb, neçə-neçə alim, publisist, şair öz fikrini gələcək nəsillərə əmanət edib. Bu divarlar arasında təkcə kağız qoxusu yox, həm də zəhmət, sədaqət və mədəniyyət ruhu dolaşıb.

Əlirza Xələflinin çıxışı isə bu ruhun necə yorulduğunu, necə tək qaldığını açıq şəkildə göstərirdi. 35 il - az zaman deyil. Bu, bir insan ömrünün ən məhsuldar, ən məsuliyyətli illəridir. O illəri qonorarsız məqalələrə, gecələr yazılan yazılara, çətin şərtlər altında nəşr olunan kitablara həsr etmək isə yalnız peşəkarlıq deyil, həm də missiyadır. Təəssüf ki, bu missiya bu gün layiq olduğu dəyəri görmür.

Ən acısı da odur ki, biz itkiləri adətən hər şey bitəndən sonra anlayırıq. Nəşriyyat qapadılır, redaksiyalar boşalır, kitabların səsi kəsilir - və yalnız bundan sonra "niyə belə oldu?" sualını veririk. Halbuki bu sualı daha əvvəl, hələ söz danışa bilərkən, hələ kitablar çap olunarkən vermək lazım idi.

"Azərbaycan" nəşriyyatına vida əslində bir quruma yox, bir düşüncə tərzinə, bir mədəni ənənəyə vidadır. Bu vida səssizdir, pafossuzdur, amma çox ağrılıdır. Çünki bu səssizliyin arxasında diqqətsizlik, biganəlik və dəyərlərə qarşı laqeyd münasibət dayanır.

Bu yazı bir ittiham yox, bir xatırlatmadır. Xatırlatmaq üçündür ki, mədəniyyət təsadüfən yaşamır, söz öz-özünə ayaqda qalmır. Onu yaşadan insanlar var - Əlirza Xələfli kimi insanlar. Onların səsi eşidilməyəndə, zəhməti qiymətləndirilməyəndə, nəticə belə olur: "Əlvida".

Bəlkə də bu vida son deyil. Bəlkə də bu, yenidən düşünmək, yenidən dəyərləndirmək üçün bir çağırışdır. Amma bir həqiqət var ki, "Azərbaycan" nəşriyyatı ilə birlikdə biz bir az da sözə olan hörmətimizi itirdik.

Əlvida, "Azərbaycan" nəşriyyatı. Səninlə birlikdə bir dövr də tarixə çevrildi.

***Səadət Sultan ABBASOVA***

**P.S.** *Həqiqətən də, bu "əlvida" deyilən çıxışa çox təsirləndim....*

* * *

**Namiq Zaman:** Əli Rza Xələfli, "ürək ağrımasın, ürək neyləsin"... Çox təəssüf!

**İsmayıl Həkimov:** Əli Rza Xələfli Sizin iradə və istedadınıza dərindən bələd olan bir oxucu kimi deyə bilərəm ki,bu "ƏLVİDA" sözə əlvida deyil. Hələ nə qədər yeni-yeni nəzm, nəsr, publisistik, tədqiqat əsərlərinin oxucusu olacağıq. Uğurlar olsun!

**Mübariz Hümmətoglu:** Əlvida, Azərbaycan nəşriyyatı.Əlvida, müstəqil mətbuat.Bu binanın qarşısında bir heykəl qoyulsun.Mətbuatın xatirəsinə əbədi bir heykəl!

**İsmayıl Həkimov:** :

Əli Rza müəllim, "Azərbaycan" nəşriyyatında "Kredo" qəzetinin reaksiyasından vidalaşdığınız anlara baxdıqca Sizin yaradıcılığınızın nə dərəcədə səmərəli olmasının bir daha şahidi olduq.

Nə qədər cətin olsada "Kredo" qəzetinin fəaliyyətinin dəvam etməsi haqqında fikirləriniz bizi sevindirdi. Uğurlar olsun!

**Dirili Yusif:** İçindən çölünə, çölündən çevrəsinə, hələ ondan da o yana Qələm Adam, Qələm İnsan olan Əli Rza Xələflinin bu harayı ciddi bir çağırışdır. Kaş elə ola ki, ürəklər titrəyə, göylər şaqqıldaya, yerlər silkələnə bu haray kar olmuş qulaqları, kor olmuş gözləri, halsz ürəkləri özünə döndərə. Bu prosesi ləngidən ciddi manelər yarana. Onsuz da yüzlərlə nəşrlərin doğulduğu məkan indiyəcən dəfələrlə təmir olunub, heç kimi də ordan çıxarmayıblar. Bəs indi nə olmuş? Bizdə belədir: bir parka, köhlən ağacların bitib boy verdiyi yerə gözü düşənlər oranı alıb, əvvəlcə hasarlayır, içindəkiləri süni yollarla qurudur. Az sonra o ərazidə yeni bir obyektin tikintisi aparılır. Çox güman, sadə qələm adamlarının, mənəviyyat adamlarının nəşriyyatına da göz dikənlər olub. Görərsiniz, "onlar" burda da sınadıqları Ənənəvi Eybəcər Üsullardan istifadə edib yeni qazanc yeri düzəldəcəklər. Bu binada ömrünü vermiş ziyalıların bəs iş yeri, qəpik-qəpik zorla qazana bildikləri qəzet-kitabların hesabına cüzi əmək-haqqı necə olsun? İnsanlarımızın informasiya təminatını az-çox ödəyən, kimsəyə ziyan verməyən bu tip obyektlər niyə bəhanələrin caynağında tarana getməlidir ki? Onlara dəyməyin, Allaha xatir! Onsuzda sürətlə aşınan və bilərəkdən uçurulmağa məruz qalan mənəvi dəyərlərimizi az-çox qoruyan bu informasiya məbədini dağıtmayın, nolar? !

**Agadadas Abbasov:** ALLAH CAN SAĞLIĞI VERSİN.İSTİRAHƏT DƏ LAZIMDIR

**Nəsir Xankişiyev:** Bizim şəhidlərimiz (Ruhlarına salavat) torpaqlarımızı işğaldan azad etdilər, millətinə və xalqına ərməğan etdilər. Bu kəslər bizi öz içimizdən (maskalanmış vətənpərvərlər) işğal etməyə başlayıblar. Bu çox amansızlıqla edilir və özünü bütün sferalarda göstərir, o cümlədən ədəbiyyatımızda və mediyamızda. Xudafərin qəzetinin son 30 ildə dövlətimiz, millətimiz və mədəniyyətimiz üçün gördüklərini cümlə ədəbiyyatşünaslığımız və mədəniyyətşünaslığımız birlikdə görməyib. Bu qəzetə rəhbərlik edən şair-publisist Əli Rza Xələfli bu işə əzab və məhrumiyyətlər müstəvisində ömrünün demək olar ki, 35 ilini sərf edib. O, bu işə ləyaqətlə xidmət edib. Görünən dağa nə bələdçi. İndi bəs nə oldu. Pis xislətlilər işə başladılar və bu qəzetin işçilərini - vətənə namusla xidmət edənlərə "xoş gəldiniz" dedilər. Bax bu da ədalət! Allah axırından saxlasın! Deyəsən, yeni əsrin köhnə pərdəsi yavaş-yavaş bağlanır! Ya da.....!

**Nurlana Telmanqızı:** Təəssüf edirəm. Allah böyükdür. Səbirli olun.

**Faiq Mahmudov:** Allah sağlıqlı ömür versin

**Qəndab:** Allah Sizə can sağlığı versin.

**İlham Qazaxli:** Var olun, ustad. Allah sizə sağlam ömür versin. Biz sizinlə fəxr edirik.

**Nəriman Mahmud:** Allah sizi qorusun, Əli Rza müəllim. "Azərbaycan" nəşriyyatı getsə də, Azərbaycan durur və yaradıcılıq üçün "Azərbaycan" nəşriyyatından daha böyük meydandır. Şükür ki, Əli Rza Xələfli də ayaqdadır və onun üçün yaradıcılığın məkanı yoxdur. Həmişə ayaqda, ustad!

**Səadət Sultan Abbasova:** Əli Rza Xələfli Allah cansağlığı versin. Yəqin ki, hər şey yaxşı olar. Səbr etmək qalır.

**Ədalət Bədirxanov:** Ulu Tanrı sizi qorusun Əlirza müəllim. Sizin harada olmağınızdan asılı olmayaraq biz həmişə sizinləyik. Söylədiyiniz ömür yolunda az da olsa mənim də payım var.

**Samil Əhmədov:** Nə yazım? Nə deyim? Təbrik edim ya təsəlli verim. Sən təpədən dırnağa qədər istedadsan Əli Rza Xələfli....

**Vüqar Əsgərov:** Var olun böyük şəxsiyyət.

**Zərnigar Hacıyeva:** Həyatın enişli-yoxuşlu olsa da ,uğur həmişə səninlə olub. İnsan,çətində olsa, əməyinin bəhrəsini görəndə daha çox yaşamaq istəyir. Əziz tələbə yoldaşımız Əlirza Xələfli sənə cansağlığı, yeni yaradıcılıq u uğurları arzulayırıq. Həyat mübarizədir.

**Hüseyn Məmmədov:** Allah sizi qorusun Əli Rza müəllim. Bəli özünüzün dediyiniz kimi neçə - neçə görkəmli şəxsiyyətlərlə görüşüb, tanış olmusunuz və olmuşuq. Ancaq bu gün bizləri isti ocağımızdan didərgin salınmışlar. Hərə bir yerə sığındı. Onu deyə bilərəm ki, Azerbaycan mətbuatı bununla da məhv edildi. Allah Azərbaycan jurnalistlərinə səbr, dözüm versin !

**Həsən Ələsgərov:** Doğma yurdumuz Azərbaycan ana Vətənimizdir.Bu torpaqda əcdadlarımızın ruhu dolaşır. Vətənə sevgi,məhəbbət insanın daxilindən, qanından, genindən gəlir. Vətən sevgisi insana ana südü ilə verilir. Siz bu gün Azərbaycan nəşriyyatını tərk edirsinizsə boya-başa çatdığın, ruhuna yaradıcılıq mayası, istedad qatan, ulularının müqəddəs ruhları dolaşan Cəbrayıl kimi gözəl torpağa qovuşursan. Sizə öz doğma ocağınızda möhkəm cansağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**İsmayıl Hekimov:** Həsən Ələsgərov əzizim,-sənin fikir və düşüncələrinlə tam şərikəm!

**Məhəbbət Mirzeyev:** Cox hörmətli Cenab Pirezidentimiz İlham Heydər oğlu Əli Rza Zal oğlu mənim orta məktəbdə Dil Ədəbiyyat müəllimim olub. Həm gözəl şair həm də gözel müəllimdir. Mən ümid edirem ona Cəbrayil rayonunda bir vezifə verərsiniz mən Mirzəyev Məhəbbət Zahid oğlu uzun illerdi Yeni Azərbaycan Partiyasının üzvüyəm mənə hec vaxt vəzifə verilmədi hec olmasa müəllimimə bir vəzifə verin.

**Meyxoş Abdullah:** Can qardaş... O iş otağınızda mən də dəfələrlə qonaq olmuşam. Ora, sözün həqiqi mənasında, söz, sənət məbədi idi. Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələri, yazıçı, şairləri, söz sərrafları, alimlər, tanınmış şəxsiyyətlər o otaqda fikir mübadiləsi aparmış, orada qonaq olmuşlar. Kövrəlmisiniz, bilirəm. Sizin qədər biz də məyyus olduq. Amma neynəmək olar? Təki, canınız salamat olsun. Onsuz da sizin xidmətləriniz çox böyükdür. Bunu danmaq mümkün deyil. Var olun, salamat olun, əziz qardaş.

**Məhəbbət Mirzeyev:** Salam Neriman Muellim Allah Əli Rza müəllimimə uzun ömür ve cansağlığı versin.

**Faiq Mahmudov:** Mehebbet Mirzeyev, Amin qaqaş.

**Nihad Mehdiyev:** Nəşriyyatda cap olunan mətbu orqanlarl Söz meydanl idi. Bu meydanda həmişə Qalib olub Əııza Xəıəfli Dühasl.Cox pis təsir etdi mənə. Elə bildim.Söz qurtardl Elə bildim qələmlər susdu. Elə bildim qələmin mürəkkəbi qurudu. Cox təəssüf. ƏLİ RZA MÜƏLLİM! SİZ "Kredo"nu yaşadan təkan verən OCAQ BAŞINDA ƏYLƏŞƏN BİR MÜTƏFƏKKİR YAZARDINIZ. "ƏIVİDA" SÖZÜNÜZ COX AGIR GƏIDİ BİZƏ. QƏBULLANA BİLMƏDİK. TANRIM SİZİ KİMİ SÖZÜN PİRİ, QİBIƏGAHI OIAN ŞƏXSİYYƏTƏ YAR, YARDIMCI OLSUN.HƏMİŞƏ.SƏSİNİZ, ÜNÜNÜZ SORAGINIZ GƏLSİN.SAGLAM CANLA YAŞAYIN ŞAİR!

**Zərəngiz Mansurova:** A qardaş, kim ala bilər oranı səndən? O kəşanə sənindir, qal işini gör. Heç yerə getmə! Bir İnstitutun işini təkbaşına görən İnsan!

**Eyyub Kerimov:** VAR OLUN HƏMİŞƏ. YARADICILIĞINIZ DAVAM ETSİN. İNŞƏLLAH!

**Zakir Aslanov**: İnşallah davam edər.

***(Davamı 7-ci səhifədə)***

*(Əvvəli 2-ci səhifədə)*

**Məhruzə İbrahimova:** Öz ləyaqəti ilə sevilən insanlar harada olmalarından asılı olmayaraq, ləyaqət onlarla bir yerdə olur. Hörmət və sayqılarla

**Sima Cəfərova:** Həyat davam edir. Nədənsə sizi elə bil ürəyi dayanmış olaraq dinlədim. Bilmədim sevinim, ya kədərlənim!? Bu iki hissin arasında dondum. Bütün varlığınızın zərrələrinin sayı qədər Azərbaycan üçün yaşamısınız, daha dayana bilməzsiniz, sadəcə məkan dəyişər. Siz harada olsanız da bizimləsiniz, Azərbaycanın bir ölməz, itməz parçasısınız! Cəbrayıla tam təməlli qayıdışınız mübarək. O doğma adamın doğma səsini biz dostları həmişə eşidəcəyik! Allah can sağlığı versin, Vətəndən ayrı illərin əvəzini vətəndə sağlam yaşamağınızı arzu edirəm!

# ƏLVİDA, "AZƏRBAYCAN" NƏŞRİYYAT

## *Həqiqət uğrunda savaşın son günü*

**Səmayə Şahmarova:** O iş otaqları mənə elə tanış gəlir ki... "Kredo" qəzeti redaksiyasının baş redaktoru olduğu yazıçı , jurnalist Elirza Xelefli və redaksiya heyəti mənə doğma və əzizdir.

Yazılarım çap olunurdu. Müəllif ən çox yazılarini qəzet və jurnallarda görərkən sevincinin həddi hüdudu ölçüyə gelmezdir. Bu sevinci də bizlərə Əlirza müəllim yaşadırdı... Əlvida demirəm , təsəlli üçün. Hələlik deyirəm, "Azərbaycan" nəşriyyatı.

**Zəkiyyə Elruh Pənahova:** Hara getsəniz müvəffəqiyyət, uğur sizinlə olsun, istedadlı şair.

**Sabir Şirvan Zalov:** Həyat davam edir ustad. Allah uğur versin!

**Sədaqət Qabilqızı:** "Kredo"ya yer qəhət deyil, təki siz sag olun! Heç ürəyinizə salmayın.- Bir yandan baglayan, bir yandan açan var. İrəli-,ancaq irəli,davam,yenə də davam.

**Səbahət Həsrətova:** Həyat davam edir. Allah sizə sağlıqlar versin...

**Agamir Cavad:** Allah sizi qorusun! Əsl ustad sənətkarların qiymətini Allah verir. Azərbaycanın milli-mənəvi dəyərlərinə biganə münasibət bəsləyənlər, düşmən dəyirmanına su axıdanlardan heç vaxt qiymət gözləməyə dəyməz. "Kredo" həmişə yaşayacaq. Sizə Uğurlar diləyirəm, Əlirza müəllim!

**Nəzər Mirzəyev:** Sizə can sağlığı arzu edirəm, hörmətli Əlirza müəllim, ğözəl Şair. Təxminən 20 il əvvəl şair Qərib Aşkari ilə qonağınız olduq. Unudulmaz anlar yaşadıq. Sizin bağışladığınız kitabı indi də saxlayıram. Var olasınız həmişə!

**Zahid Quliyev:** Allah sizi qorusun dəyərli şair Əli Rza müəllim.

**Nəzirməmməd Zöhrablı:** Uğurlar, ustad yazarımız Əli Rza müəllim! Uğurlar müşayiət eləsin bundan sonrakı həyatınızı! Yaratdıqlarınızla əbədi bu xalqlasız. Amma bu da son deyil. Növbəti mərhələnin başlanğıcıdı. Harda olsanız bu xalqın sizə ehtiyacı tükənməz enerjinizi yenə də rövnəqləndirəcək.

***2026***